AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 3 (273), 100-109

AZƏRBAYCAN ƏDƏBİYYATI

# Ədəbiyyatımızda Qafqaz İslam Ordusu və Azərbaycan Xalq Cümhuriyyəti dövrünün bədii təqdimi

***Minaxanım Nuriyeva Təkləli***
Filologiya elmləri doktoru, professor. Azərbaycan Dövlət Pedaqoji Universiteti.
Azərbaycan. E-mail: proftomris@gmail.com
https://orcid.org/0000-0002-4985-8134

**XÜLASƏ**
Azərbaycanda dövlət müstəqilliyinin qazanılması ilə keçmişə yeni meyarlarla yanaşmağa başlanılmış, tarix elmində, o cümlədən söz sənətində obyektiv tarixi həqiqətləri əks etdirmək meyli güclənmişdir. Son on ildə tariximizin qadağan olunmuş səhifələrinin təkrar vərəqlənməsinə, habelə yanlış yazılan məqamların yenidən işlənməsinə böyük maraq duyulur. Ədəbiyyatımız Azərbaycanda bir əsr əvvəl baş verən mürəkkəb ictimai-siyasi prosesləri əks etdirən, dövrün bədii ifadəsi sayılan sanballı əsərlərlə zənginləşir. Məqalədə Bəxtiyar Vahabzadə, Çingiz Hüseynov, Qabil, Nəriman Həsənzadə, Hüseynbala Mirələmov, Yunus Oğuz yaradıcılığında milli mücadilə tariximizlə bağlı hadisələr və şəxsiyyətlər, həmçinin onların bədiiləşdirilməsi istiqamətində görülən işlərdən bəhs olunur.

**AÇAR SÖZLƏR**
Azərbaycan, dövlət müstəqilliyi, ədəbiyyat, tarix

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 28.06.2022
qəbul edilib: 22.07.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 3, VOL. 273, 100-109

AZEBAIJANI LITERATURE

# On the artistic presentation of the period of Caucasian Islamic Army and Azerbaijan Democratic Republic in our literature

***Minakhanim Nuriyeva Tekleli***
Doctor of Philological Sciences, Professor. Azerbaijan State Pedagogical University. Azerbaijan. E-mail: proftomris@gmail.com
https://orcid.org/0000-0002-4985-8134

**ABSTRACT**
With the gaining of state independence of Azerbaijan, a new approach to the past began, and the tendency to reflect objective historical truths in the science of history, as well as in the art of speech, intensified. In recent decades, there has been great interest in opening up the forbidden pages of our history, as well as reworking the misspelled points; our literature is enriched with beautiful, respectable works that reflect the complex socio-political processes that took place in Azerbaijan a century ago and are considered an artistic expression of the time. The article discusses the events and personalities of Bakhtiyar Vahabzade, Chingiz Huseynov, Gabil, Nariman Hasanzade, Huseynbala Miralamov, Yunus Oguz, the history of our national struggle, and the work done to make them artistic.

**KEYWORDS**
Azerbaijan, state independence, literature, history

**ARTICLE HISTORY**
Received: 28.06.2022
Accepted: 22.07.2022

## Giriş / Introduction

Azərbaycan xalqının tarixini, onun taleyində önəmli rolu olan görkəmli şəxsiyyətləri – dövlət və mədəniyyət xadimlərini üzə çıxarmaq, onları xalqa daha yaxından tanıtmaq və sevdirmək işində yazıçıların böyük rolu vardır. Belə ki, tariximizin öyrədilib sevdirilməsində elmi qaynaqlar, araşdırmalar və sənədlərlə yanaşı, tarixi mövzularda yazılmış bədii əsərlər də eyni dərəcədə əhəmiyyət kəsb edir. Odur ki, tarixi müqəddəratımızda önəmli rol oynamış görkəmli şəxsiyyətləri müasirlərimizə, gənclərimizə yaxından tanıtmalıyıq. Keçmişə məhəbbət gələcəyə xidmətdir [Əkrəm Cəfər]. Qeyd etməliyik ki, tarixçilərin bəzən söyləyə bilmədiyi həqiqətləri bir çox hallarda yazıçılar öz əsərləri vasitəsilə insanlara çatdırmışlar. Buna aid çoxsaylı nümunələr göstərmək mümkündür. Bir nümunəyə diqqət yetirək: Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" əsəri yazılsa da, tarix kitablarında Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu və ona aparan yol – Nuri paşa, Qafqaz İslam Ordusunun fəaliyyəti öz həqiqi elmi şərhini hələ də tapmamışdır. Dövlət müstəqilliyi qazanıldıqdan sonra ədəbiyyatımızın inkişafında bir canlanma ilə yanaşı, həm də mövzularda kökündən dəyişikliklər baş verdi, fərqli təzahürlər ortaya çıxdı. Nəzərə çarpacaq cəhətlərdən biri də bu oldu ki, vaxtilə üzərində xüsusi qadağalar qoyulmuş mövzular sanki gün işığına çıxarıldı. Son on ildə tariximizin qadağan olunmuş səhifələri yenidən yazılır, hətta vaxtilə yanlış yazılan məqamlara böyük maraq duyulur. Ədəbiyyatımız yeni nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayacaq sanballı əsərlərlə zənginləşir.

Tədqiqat mövzusunu şərh edərkən bu yöndəki nəticələri xronoloji qaydada iki dövrə bölə bilərik:

1. Yeni müstəqillik dövrünə qədərki ədəbiyyat;
2. Müstəqillik dövrü ədəbiyyatı.

Azərbaycan xalqının həyatında 1918-ci il sözün əsl mənasında həm faciəvi, həm də uğurlu nəticələr baxımından mühüm tarixi bir mərhələdir. Belə ki, bu dövrdə həm mart soyqırımı baş vermiş, həm də Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Xalqımızın taleyi və dövlətçilik tariximizlə bağlı bu qısa dövr ilk çağlarından Əhməd Cavad, Cəfər Cabbarlı, Salman Mümtaz, Abdulla Şaiq, Abbas ağa Nazir, Məhəmməd Hadi, Ümmigülsüm, Müznib və başqalarının yaradıcılıq mövzusuna çevrilmişdir. Əlbəttə, sonralar – sovet dövründə yazılan əsərlərdə tarixin eynilə bədii inikasını gözləmək qeyri-mümkün idi. Bununla belə, Azərbaycan dövlətçiliyi tarixində ən böyük və əhəmiyyətli hadisələrdən olan Qafqaz İslam Ordusunun fəaliyyəti və Azərbaycan Xalq Cümhuriyyəti sovet dövrü ədəbiyyatında

öz əksini tapmışdır. Məmməd Səid Ordubadinin "Döyüşən şəhər", "Gizli Bakı", Sabit Rəhmanın "Şirin bülbül", Mir Cəlalın "Dirilən adam", "Bir gəncin manifesti", Mehdi Hüseynin "Komissar", Böyükağa Talıblının "Qırx zopa", Qılman İlkinin "Şimal küləyi", "Yenilməz batalyon" əsərləri və Səməd Vurğunun "26-lar" poeması qeyd etdiyimiz çağların bədii təcəssümü olmaqla müəyyən mənada həmin dövrün tarixi hadisələrini oxucuya çatdırırdı. Adı çəkilən əsərlərdə təlatümlü bir dövr olan 1918-ci ilin Bakısı və əksər obrazlar yadda qalan detallarla təsvir olunsalar da, unutmayaq ki, siyasi quruluşun tələbləri üzündən belə mövzuları tam dəyərində işləmək qeyri-mümkün idi. Məsələn, M.S.Ordubadinin yaşadığı, şahidi olduğu bir dövrün bədii ifadəsi kimi meydana çıxan və Azərbaycanda baş verən mürəkkəb ictimai-siyasi prosesləri əks etdirən "Döyüşən şəhər" əsəri dediklərimizə sübut ola bilər. Əsərin təsir gücünü artıran sözsüz ki, müəllifin koloritli dili və macəraya çevriləcək yazı tərzi idi. Yazıçı əsərin aparıcı qəhrəmanlarının ayrıca romanını yaratmış, onların bədii xarakterinə həzin bir lirizm, psixologizm gətirmişdir. Bu cəhətdən "Leylanın romanı", "Rayanın romanı", "Doktor Yusidivisin romanı", "Esterin romanı" və s. əsərlər həm tipoloji mənada, həm də janr strukturu baxımından orijinal təsir bağışlayır. Bu "daxili romanlar" əsərə həm nağıl xüsusiyyəti aşılayır, həm lirik-subyektiv başlanğıc gətirir, həm də süjetə novella sonluğu verir. "Döyüşən şəhər"də inqilabi, yaxud "vətəndaş müharibəsi" mövzusunda yazılan roman təsnifatının zahiri örtüyü altında şəxsi həyatları olan insanların canlı bədii obrazları təsvir olunmuşdur. Lakin qeyd etmək lazımdır ki, ədəbiyyatşünas Yaşar Rzayevin qeydlərinə görə bu, və bu qəbildən olan əsərlərdə "ayrı-ayrı həyat lövhələri bədii əksini tapsa da, obrazlar, xüsusilə əsas qəhrəmanların obrazları natamam idi [9, s. 108]. Bilirik ki, bu natamamlıq istər surətlər haqqında, istərsə də dövrün təsvirində "deyə bilməmək" üzündən ortaya çıxmışdır. Müəllifin qəhrəmanları bolşevik liderləri idi. Bolşevik partiyasının 1897-1919-cu illərdə Bakıdakı fəaliyyəti əks olunmuş, vaxtilə qızğın təbliğ edilən bir sıra bolşeviklərin – Lado Ketsxovelinin, Pyotr Montinin, Stepan Şaumyanın obrazları yaradılmış, "Döyüşən şəhər" (1938), habelə "Gizli Bakı" (1940) və "Dünya dəyişir" əsərlərində "dəyərlərin və meyarların dəyişdiyi bir cəmiyyətdə" Hacı Zeynalabdin Tağıyev mənfi boyalarla təsvir edilmişdir [8, s.97]. …Bunlar artıq müasir oxucunu inandıra bilmir. Sadəcə, bolşevik ideologiyasının təsiri ilə yazılan "Gizli Bakı" və "Döyüşən şəhər"də o dövrün həqiqi mənzərəsi bir növ gizli qalmışdı. Romanda ("Döyüşən şəhər"də) Bakı komissarlarının fəaliyyətinin olduğu kimi təsvir olunmamasını tarixi roman

tədqiqatçısı professor Yavuz Axundlu belə qeyd edir: "Şübhəsiz, Bakı komissarlarının əsl simasına yaxından bələd olan ədib o zaman onlar haqqında susmağı daha münasib bilmişdir".

Necə yazılmasından asılı olmayaraq bu əsərlər Azərbaycanın mürəkkəb tarixi çağlarından Bakıda baş verən ziddiyyətli və taleyüklü mühüm hərəkatları təsvir etməklə tarixin bədii şəkildə ifadəsinə xidmət etmişdir. Göründüyü kimi, bu məsələ tariximizin tədqiqi və dəyərləndirilməsində olduğu kimi, ədəbiyyatımızda da bir çox hallarda dövrün siyasi tələblərinə tabe etdirilmişdir. Tarixi roman janrının tədqiqatçısı prof. Yavuz Axundlu deyilənləri nəzərdə tutaraq yazır: "Azərbaycan tarixi uzun illər tarixi həqiqətləri tam əks etdirə bilməmiş, bəzən də tarixçilərimiz bilə-bilə bu təkzibolunmaz həqiqətlərin üzərinə kölgə salmışlar. Bu cəhət tarixçilərlə bərabər bədii söz ustalarına da təsirsiz qalmamışdır. Onlar da tarixçilərlə bir sırada keçmişi yalnız müəyyən qərar və direktivlərin dəst-xəttinə uyğun bədii tədqiqat obyektinə çevirmişlər [1, s.169].

Beləliklə, inqilabi mövzular kimi əsər qəhrəmanları da ədəbiyyata köçürülməkdə idi. Təbii ki, ədəbiyyatşünas alim Akif Hüseynlinin qeyd etdiyi kimi, "həyat həqiqəti mövqeyindən yox, hansısa bir ideoloji mövqedən yaradılan əsər obyektivliyi mühafizə edə bilməz" [5, s.201]. Əsərin qayəsi humanist yazıçının "Vətən qayğısı, xalqa məhəbbət" prinsiplərindən doğmuşdur. Bu əsər tariximizin faciələrlə dolu bir çağına – XX əsrin başlanğıcının ictimai-siyasi mənzərəsini canlandırmağa həsr edilmişdir. "Tarixi əsərlərdə tarixin təhrifi" məsələsinə münasibətdə görkəmli filoloq-alim prof. Qəzənfər Kazımovun yüksək tələbkarlıq mövqeyindən söylənilmiş fikirlərini də əlavə etmək lazım gəlir: ədəbiyyat da tarix kimi tarixi düzgün əks etdirməlidir [6, s.68]. Bədii ədəbiyyat tarixdən çox oxunur, buna görə də onun düzgün və obyektiv mövqeyi daha vacibdir. Bu tələblərə cavab verməyən əsərlər sadəcə olaraq mövzunu korlamır, həm də dövrə yanlış münasibət yaratmaqla zərərli bir şey kimi ortaya çıxır. ...bunlar oxucunu çaşdırır, keçmişə münasibətini korlayır, tarixi duyumla yaranmış təsəvvürləri heçə endirir [6, s.68]. Bundan yalnız tarixi keçmişimiz deyil, həm də ədəbiyyatımız itirmişdir. Dünənimiz təhrif olunmuş, bədii sərvətimiz kasadlaşmış, bundan isə ən çox xalqımız ziyan çəkmişdir: milli şüurumuz, siyasi mədəniyyətimiz kasadlaşmış, ümumiyyətlə mənəvi ənənələrimizin davamında kəskin qırıqlıq əmələ gəlmişdir" [5, s.183].

Azərbaycan tarixinin bu dövrünün yeni baxışlar əsasında yaranması, şəksiz, ədəbiyyatın, mədəniyyətin və ictimai həyatın böyük hadisəsi kimi

qiymətləndirilməlidir. Əhməd Cavad Bakının Qafqaz İslam Ordusu və yerli birliklər tərəfindən azad edilməsinə həsr etdiyi "Ey əsgər" şeirində yazır:

Şu qarşıkı duman çıxan bacadan
Sən gəlmədən iniltilər çıxardı!
Geciksəydin, məzlumların fəryadı
Yeri, göyü, kainatı yıxardı!

Nuri paşa və igid türk əsgərlərinin əfsanəvi qəhrəmanlığı, sayca özlərindən qat-qat üstün düşmən qüvvələrinə qalib gəlməsi dildən-dilə düşür. Belə bir qaynar mühitdə istiqlal hərəkatının atəşin bağrından qopan, pərvəriş tapan türk millətçiliyi və hürriyyətçiliyi məfkurəsinə sahib çıxan Azərbaycan gəncliyinin diqqət mərkəzində fitri istedadı, yüksək intellekti və sanballı yaradıcılığı ilə yer alan gənc Cəfər Cabbarlı da var idi [8, s.89]. C.Cabbarlının "Trablis müharibəsi" və ya "Ulduz" və "Ədirnə fəthi" pyesləri (1917) böyük siyasi şəxsiyyətlərin bədii şəxsiyyətə çevrilməsi mövzusunun həllinə yönəlmişdir. Əlbəttə, belə mövzular təkrarlanmış olsa belə, hələ də öz aktuallığını saxlamaqda, dəyəri və təsir gücünü mühafizə etməkdədir. "Bu, tarix vasitəsi ilə tərbiyə etmək istəyən, məlum həqiqətlərin bədii şərhində öz sözü, öz dəsti-xətti olan yazıçıya epik təsvir üçün qiymətli materialdır" [1, s.154]. 1917-ci il I Dünya müharibəsinin qızğın çağında tamaşaya qoyulan "Trablis müharibəsi"ndə yazıçı Ramiz obrazının prototipinin Nuru paşa olduğunu bəyan etdi. Nuru paşanın hərbi xadim və şəxsiyyət kimi onu heyran qoyduğunu və generalın Bakının xilası uğrundakı zəfər yürüşündən bəhs olunacaq yeni əsər yazacağına söz verdi. Cəfər Cabbarlının alovlu nitqi Nuru paşanı heyran qoymuşdu. General ziyafətdən sonra "arkadaş" adlandırdığı Cəfərin dəvətini qəbul edərək, onun qonağı oldu. Gənc olmasına baxmayaraq, istedadlı və böyük sənətkarın darısqal mənzil şəraiti generalı sıxır. Nuru paşanın bu istiqamətdəki təkliflərindən Cəfər minnətdarlıqla imtina edirdi. Lakin ertəsi gün Nuru paşanın göndərdiyi hədiyyələri Cəfərin anası Hacı Şahbikə xanım qəbul etmək məcburiyyətində qaldı. Bunlar bir ədəd nikelli dəmir çarpayı, daş güzgü, paltar üçün ayaqlı asılqan, divar saatı və bəzi əşya və ləvazimatlardan ibarət idi [8, s.94]. Bir həftə sonra, 1918-ci il noyabrın 17-də Müttəfiq Dövlətlər Birliyinin hərbi hissələrinin Bakıya daxil olması ilə əlaqədar olaraq Qafqaz İslam Ordusu Azərbaycandan geri çağırıldı. Nuri paşa arzu və iradəsinin əleyhinə olaraq, Bakını tərk etmək məcburiyyətində qaldı. C.Cabbarlı ziyafətdə verdiyi sözə əməl edərək, Nuri paşanın qəhrəmanlığından bəhs edən 5 pərdəli, 7 şəkilli "Bakı müharibəsi" adlı dram əsərini yaratdı [8, s.94]. AXC hökumətinin qurulmasından, habelə

cümhuriyyətin süqutundan sonra burada qalıb Azərbaycanı işğal edən bolşevik işğalçılara qarşı Gəncə, Şuşa üsyanlarını təşkil edən Nuri paşanı xalq çox sevirdi. Ona və yaxın silahdaşları Xəlil paşaya, Cəmil Cahid paşaya həsr olunmuş şeirlər də bu sevginin təzahürü idi [11, s.612-613].

Yeni əsrdə müstəqilliyimizin elanı ilə həm də ədəbiyyatımıza, ictimai-siyasi düşüncəmizə on illər boyu susdurulmuş obrazlar, qadağan edilmiş ideyalar, yeni mövzular gətirildi. Bu onu göstərirdi ki, Azərbaycan xalqı (və ədəbiyyatı) nə qədər susmağa məcbur edilsə də, öz tarixi həqiqətləri və şəxsiyyətlərini unutmaz, ona yadlaşa bilməz [4, s.184]. Lakin son illərdə şərait dəyişmiş, keçmişə yeni meyarlarla yanaşmağa diqqət artmış, tarix elmində, o cümlədən söz sənətində obyektiv tarixi həqiqətləri əks etdirmək meyli güclənmişdir" [1, s.169].

Nuri Paşa at belində Türkiyədən – Karsdan gəlir,
"Azərbaycan" deyə-deyə yenilməyən arslan gəlir!

Qafqaz İslam Ordusunun komandanı Mustafa Nuri paşa və onun silahdaşları – şanlı türk zabitləri barədə yazılan əsərlər gündən-günə çoxalaraq dillərə düşür. Şair Nəriman Həsənzadənin "Nuri Paşa" poemasından götürülmüş şeir parçası "Qafqaz İslam Ordusunun Zəfər marşı" kimi qəbul edilmiş və ona musiqi bəstələnmişdir:

Türkün döyüş bayrağında doğan aya, hilala bax,
Bu yürüşə, bu zəfərə, bu şanlı cah-cəlala bax,
Dalğalanan türk bayrağı istiqlaldan xəbər verir,
Türkün şanlı tarixinə zaman ər oğlu ər verir.

Şair hərarətlə vəsf etdiyi Nuri paşa obrazının timsalında qəhrəmanın tərcümeyi-halını onun mənsub olduğu millətin tərcümeyi-halı səviyyəsinə qaldırır: klassik dastanlardan gələn təbii bir yaradıcılıq enerjisi (və estetikası) ilə inandırır ki, adi insan da, böyük şəxsiyyət də milli tarixi missiya daşıyır. Millət o zaman güclü olur ki, …böyük şəxsiyyətini tanısın, onu yaddaşına (tarixinə) yazıb örnəyə çevirsin [3, s.76]. Odur ki, xalqımız bütün təhlükələrə baxmayaraq tarixin unutdurduğu sovet irtica illərində belə bu borcu verməyə çalışmış, türk əsgərlərinin tənha məzarlarını qoruyub saxlamış, ona ibadətgah kimi baxmışdır [3, s.79].

Bununla bağlı fikirlərimizi möhkəmlətmək üçün Bəxtiyar Vahabzadənin "Tənha məzar" şeirindən bir parçaya nəzər salaq:

Yolun kənarında tənha bir məzar,
Üstündə nə adı, nə soyadı var.

Ey yolçu, maşını əylə bu yerdə,
Soruş kimdir yatan tənha qəbirdə.
O bir türk zabiti – qəhrəman, mətin,
Doğma qardaşına yardıma gəldi.

Bəxtiyar Vahabzadənin "Tənha məzar" adlı şeirindən götürülmüş bu misralar Şamaxı rayonunun Acıdərə kəndi deyilən ərazidə məzar daşına həkk edilmişdir: Qafqaz İslam Ordusunun Gəncədən başlayıb Bakı, Dərbənd istiqamətində Şamaxı, Salyan ərazisindən keçdiyi döyüş yolları üstündə şəhid məzarları qalmışdır. Zaman-zaman Azərbaycan torpaqlarında qardaşlığın bənzərsiz örnəyi olan bu yadigarlar şeir, sənət mövzusuna çevrilmişlər. Bu sətirlərin müəllifinin də bir çox şairlərimizin səsinə qatdığı sözü vardır:

Yolçu! Bu məzarda uyuyan şəhid,
Qardaşın qardaşa əmanətidir.
Odlar diyarının istiqlalına,
Qoca Türkiyənin zəmanətidir!
[Qabil].

Şeir bizdə tariximizin ədəbiyyatımızda əksi, başqa sözlə, tarixiliyin və bədiiliyin vəhdəti təəssüratlarını doğurur [7, s.168].

Azərbaycandan uzaqlarda yaşayıb yaradan böyük yazıçı Çingiz Hüseynov öz romanını "Doktor N" adlandırsa da bunu təkcə Nəriman Nərimanovla bağlı qəbul edənlərə romanda 1918-1920-ci il hadisələrini və Nərimanovla bərabər Məmməd Əmin Rəsulzadəyə də böyük yer verdiyini bildirir. Bununla da Azərbaycanın qarşısında duran iki böyük inkişaf yolunun mövcudluğunu diqqətə çatdırır. Romanda sonradan məhvə məhkum olmuş sovet yolu və digər milli müstəqillik yolu bu iki liderin adı ilə simvollaşdırılaraq təqdim olunmuşdur. Professor Nizami Cəfərov müstəqillik əldə olunduqdan sonra bu mövzularla bağlı ədəbiyyatımızda ayrı-ayrı yazıçıların, o cümlədən müstəqillik dövrü Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biri olan Nəriman Həsənzadə yaradıcılığında ideya-məzmun istiqamətində gedən yeniliyi nəzərdə tutaraq yazırdı: "Bu əsərlərdə (Nuri paşa və digər şəxsiyyətlərimiz, habelə Qarabağ həqiqətləri barədə) Nəriman Həsənzadə həm epos təhkiyə-intonasiyasına, həm hadisələrin dramatizminə, həm də xarakterik detal-məqamların ictimai-estetik interpretasiyasına əsaslanmaqla bir şair, bir tarixçi, həm də bir mütəfəkkir-filosof kimi çıxış edir [4, s.183].

Nəriman Həsənzadə tarixi mövzuda qələmə aldığı “Nuru Paşa” (2009) poemasını yazmağa hazırlaşarkən hər hansı bir tarixçidən heç də az olmayan araşdırma işi aparmış, çox sayda mənbələrə müraciət etmiş, “bu qaynaqlar müəllifə əsərdə maraqlı döyüş səhnələri qurmağa, habelə tarixi şəxsiyyətlərin dəqiq, doğru-dürüst və dolğun portretini yaratmağa kömək etmişdir [7, s.178].

N.Həsənzadə poema yaradıcılığına lirikadan gəlmişdir, bu da özünü şairin poemalarının lirik xarakterində kifayət qədər aydın göstərir [4, s.183]. Bu, onun böyük sevgi ilə yaratdığı Nuri paşa obrazına baxışında da özünü büruzə verir. O, şair üçün həm tarixi, həm də lirik qəhrəmandır. Poema xüsusi tərzdə hazırlanmış on beş sərbəst şeir parçasından ibarətdir. Nuri paşa və onun komandası altında qəhrəman türk ordusu əsgərlərinə sonsuz ehtiram şeirin hər misrasından, bu sevginin və hörmətin şairanə ifadəsindən sezilir. Bu bir həqiqətdir ki, bədiiliyin ən mühüm əlaməti əsərin dilinin mükəmməlliyidir. Əsər üzrə müşahidələrimizin nəticələrini yenidən nəzərdən keçirək:

Türk can qoydu bu torpaqda,
“Azərbaycan!” deyə-deyə.
Tarix! Səni oxuyuram
Mən türkə
“Can” deyə-deyə.

N.Həsənzadənin müəllifi olduğu bu əsər Nuri paşa haqqında bioqrafik əsər deyildir. Belə əsərlər bizə tarix öyrədir; bədii əsər də öz növbəsində tarix kitablarıtək o dövrlə bir nəfəs almağa, tanıyıb öyrənməyə, onu sevməyə kömək edir. Nəriman Həsənzadə səmimi şairdir. Onun “Fatehlərin varisi”, “Turanlı Şahzadəm”, “Türkün qılınc ləhcəsi”, “Cəhənnəm səhnəsi” (Ermənilərin ölkənin hər guşəsində törətdiyi qırğına işarə ilə), “Alovların qucağına nazirin qardaşı gəlir”, “Vaxtın əli tətikdədir” və s. əsərləri də bu səmimiyyətdən, sevgidən yaranmış nümunələrdir.

Son günlərdə yazıçı H.Mirələmovun ictimaiyyətə, xüsusən müasir gənc nəslə xitabən yazdığı “Ənvər paşa” romanı böyük hadisəyə çevrildi. Kitab Azərbaycanın çətin çağlarında ona köməyə göndərilmiş Qafqaz İslam Ordusunun qurucusu və təşəbbüskarı, Türkiyənin Hərbi naziri İsmayıl Ənvər paşadan, onun qısa, lakin dolğun həyat yolu və mübarizəsindən bəhs edir.

Azərbaycanın müstəqilliyi uğrunda, eləcə də Türkistanda böyük müqavimət çıxışlarının başladılması və onun davam etdirilməsi yolunda xidmətləri olan Ənvər paşanın mübarizəsi kitabda tam dolğunluğu ilə öz ifadəsini tapmışdır. Belə əsərlər

qardaşlıq körpüləri sayılır, Ulu öndərimiz Heydər Əliyevin vaxtilə saldırdığı "Ümid körpüsü" kimi.

## Nəticə / Conclusion

Bu mənəvi və elmi-əxlaqi sərvətləri öyrənmək, onları təfəkkür süzgəcindən keçirərək müasir gəncliyin tərbiyəsində istifadə etmək olduqca əhəmiyyətlidir. Azərbaycan ədəbi irsindəki keçmişimizə hörmət və diqqətin, fikir və təcrübələrin, görkəmli şəxsiyyətlərin ölkəmizin tarixi ilə bağlı fikirlərinin öyrənilməsinə bu gün böyük ehtiyac vardır. Beləliklə, müəyyən mənada keçmişimizi, bir növ taleyimiz, tərcümeyi-halımız sandığımız tariximizi müasirlərimizə sevdirmək işində ədəbiyyatımızın da böyük rolu ortaya çıxır. Həqiqətən də tariximizin tədqiqi və sevdirilməsində bədii ədəbiyyat nümunələri, o cümlədən tarixi əsərlər xüsusi əhəmiyyətə malikdir.

Beləliklə, Vətən sevgisini, tarixə məhəbbəti əks etdirmək, keçmişin səhifələrini işığa tutaraq bərpa etməklə canlandırmaq həmişə olduğu kimi bu gün də ədəbiyyatımızın mühüm vəzifələrindən sayılır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Axundlu Y. (1998). Tarixi roman yeni mərhələdə. Bakı, Maarif. 179 s.
2. Bayramoğlu A. (2008). Cümhuriyyət ədəbiyyatında Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı, Nurlar, s.531-562.
3. Cəfərov N. (2014). Tarixin tərcümeyi halı. Bakı, Elm və təhsil. 141 s.
4. Hüseynli A. (2001). Həyat və sənət həqiqətləri. Bakı, 204 s.
5. Kazımov Q. (1997). Ədəbiyyat və sənət məsələləri. Bakı, Kitab Palatası. 576 s.
6. Nuriyeva Təkləli M. (2019). "Ədəbi-bədii yaradıcılıq və tarixi-mədəni irsin təbliği". Sənət kəşfləri: Yaradıcılıq səadəti. Bakı, Elm və təhsil, s.164-179.
7. Rüstəmli A. (2009). Cəfər Cabbarlı. Həyatı və mühiti. Bakı, Elm yayınları. 226 s.
8. Rzayev Y. (2010). Azərbaycan romanı: siyasət və milli düşüncə. Bakı, Elm. 296 s.
9. Süleymanov M. (2013). Nuri Paşa və silahdaşları. Bakı, Nurlar. 536 s.
10. Гасанлы Дж. (2011). Русская революция и Азербайджан: Трудный путь к независимости (1917-1920). Москва, Флинта. 664 с.